# *Akkan SUVER:* "20 Yanvar bütün bəşəriyyət üçün insanlıq dramıdır"

**"Yanvarın 20-si Azərbaycan tarixində həm dərin faciə, həm də milli iradənin sarsılmazlığını özündə ehtiva edən mühüm günlərdən biridir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda dinc əhaliyə qarşı törədilmiş kütləvi qırğından 36 il ötür. Tarixə "Bakı qətliamı", "Qara Yanvar" kimi düşən bu hadisə Azərbaycan xalqının yaddaşında həm də "Qərənfillərin ağladığı gecə" adı ilə əbədi həkk olunub".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin rəhbəri professor Akkan Suver deyib.

O qeyd edib ki, həmin gecə SSRİ-nin ali rəhbərliyi tərəfindən "Azərbaycanda ermənilərin və rusların təhlükəsizliyi təhdid altındadır" bəhanəsi ilə fövqəladə vəziyyət elan edilib və Bakıya dörd istiqamətdən yeridilən sovet ordusu dinc və silahsız əhaliyə qarşı misli görünməmiş vəhşilik törədib: "O gecə 131 insan qətlə yetirildi, yüzlərlə insan həbs olundu. Şəhərin küçələrində axıdılan qan qar üzərinə səpələnmiş qərənfillərlə yadda qaldı və bu səbəbdən həmin gecə tarixə "Qərənfillərin ağladığı gecə" kimi düşdü".

Akkan Suver vurğulayıb ki, 20 Yanvar hadisələrinin kökündə Ermənistanın ərazi iddiaları və bu iddialara qarşı Azərbaycan xalqının etirazı dayanırdı. Sovet rəhbərliyi isə bu haqlı etirazı zorakılıqla boğmaq yolunu seçdi: "Qısa zaman ərzində 186 min azərbaycanlı Ermənistandan, öz doğma yurdlarından didərgin salındı. Bu, mahiyyət etibarilə açıq-aşkar etnik təmizləmə siyasəti idi".

Onun sözlərinə görə, 20 Yanvar faciəsi Qarabağda sonradan baş verəcək hadisələrin, o cümlədən 1992-ci il fevralın 26-da Xocalıda törədilmiş soyqırımının ssenarisinin ilkin mərhələsi idi: "Sovet İttifaqının 1956-cı ildə Macarıstana, 1968-ci ildə Çexoslovakiyaya, 1979-cu ildə Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxilələrin oxşarı bu dəfə özünün əsas respublikalarından biri olan Azərbaycanda təkrarlandı".

Akkan Suver xatırladıb ki, 1995-ci il aprelin 27-də İstanbulda Çırağan sarayında çıxış edən Mixail Qorbaçov 20 Yanvar hadisələrini öz siyasi həyatının ən böyük səhvi adlandırsa da, artıq gec idi: "Qətliamlar törədilmiş, insanlar öldürülmüş, yüz minlərlə insan yurd-yuvasından didərgin düşmüşdü. Təəssüf ki, bu gün də 20 Yanvar və onun davamı olan Xocalı faciəsi dünya miqyasında layiq olduğu səviyyədə qınanmamışdır. 20 Yanvarda törədilənlər yalnız Azərbaycan xalqına və ya türk dünyasına qarşı deyil, bütün bəşəriyyətə, insanlığa qarşı törədilmiş cinayətdir. Bu həqiqəti yalnız regional yox, qlobal miqyasda dərk etmək lazımdır. 20 Yanvar şəhidlərinin xatirəsi ehtiramla anılmalı, bu faciə gələcək nəsillərə unudulmayan dərs kimi ötürülməlidir", - deyə sonda Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin rəhbəri bildirib.

Azərbaycan.- 2026.- 20 yanvar (№11).- S.8.